**Azərbaycan Demokrat Firqəsinin siyasi xətti və milli hərəkatın üzvlərinə**
**MÜRACİƏT**

Əziz firqə mənsubları və Azərbaycan milli hərəkatının hörmətli üzvləri,

Son günlərdə siyasi platformalarda “Roma papasından daha artıq xristian olmaq istəyən” bir qrupun diqqəti cəlb edən fikirlərilə qarşılaşırıq.

Bizi, Azərbaycan Demokrat Firqəsi (ADF) üzvlərini, irançılıga xəyanətdə, İranın birliyinə düşmənçilikdə ittiham edənlərə, ümumiyyətlə bizə birlik haqqında dərs deyənlərə açıq cavab verməyi əhəmiyyətli hesab edirik.

ADF böyük lider Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Azərbaycan xalqının arzu və istəklərindən dogulub və bütün fəaliyyəti müddətində də bu arzu və istəklərə xidmət edib.

İran xalqlarının “ümummilli birliyi” anlayışı ilə çıxış edənlərin əksəriyyəti İran bürokratiyasında şəkil almış müxtəlif xalqların nümayəndələridir. Əksər hallarda onlar fars dilində danışan və fars olmayan şəxslərdir. Bu, Qacarlar zamanında da, Pəhləvilər zamanında da həmişə belə olub və İslam Respublikasında da belədir. Siz bir isfahanlını, şirazlını milli birlik şüarı ilə bir yerə toplaya bilməssiniz, çünki o, özünü sizinlə bərabər hesab etməz.

Hafizi və Xəyyamı oxumaq, hətta Firdsosidən misallar gətirmək bizim xalqımızın multikulturallıgından, geniş ürəyindən və mədəni yüksəkliyindən irəli gəlir. Biz bu böyük xalqa növbəti dəfə xəyanət edə bilmərik.

S.C.Pişəvəri Qəvvamüssəltənə ilə birlik xatirinə danışıq aparmaga hazır idi, amma qarşılıgında xəyanət gördü. “Xəlqi Müsəlman” da birliyi qorumaq adı ilə Azərbaycanın milli hüquqlarına xəyanət etdi. ADF də 80 illik fəaliyyəti dövründə müxtəlif siyasi qüvvələrlə birlik yaratdı və elə ilk olaraq da onlar tərəfindən xəyanətə ugradı. “Bəhmən inqilabından” sonra xəyanət adı ilə tudəçilər həbs olundular, nəticədə isə Firqə rəhbərləri edam edildilər. ADF Qarabağın işgaldan azad edilməsini elan edəndə irançı və tudəçilər “yazıq ermənilərin” hüquqlarından müdafiə məzmunlu bəyanat verməyə başladılar. İranın demokratik düşüncə sahibləri Nobel mükafatı alanda Kuruşdan, Daryuşdan misallar çəkirlər, ADF-ni isə radikal millətçi hesab edirlər.

Biz tarixi təcrübədən bilirik ki, bu “ümummilli birlik” Azərbaycan xalqının arzu və istəklərinə daima xəyanət edib. Cünki, xəyanət bu ümummilli birliyin anlayışının daxilində gizlənib.

İranın ümummilli birliyinə xatir Azərbaycanın ümummilli birliyindən danışmayaq, Türkiyə və türk dünyası ilə tarixi zəfərlərimizi, ənənələrimizi unudaq, umummilli birlik xatirinə uşaqlarımızı ana dilində təhsildən məhrum edək, dilimizə qarşı təxribatları görməyək, milli kimliyimiz haqqında yayılan cəfəngiyatlara göz yumaq, səlcuqlardan, səfəvilərdən danışmayaq, Təxti-Cəmşidi özümüzə Məkkə edək və sairə və ilaxirə. Bütün bunlar milli birlik adı ilə xalqımıza ediləcək növbəti xəyanətlərdir.

Silahdaşlarının köməyi ilə hakimiyyətə gələn Pezeşkiyan da həmin silahdaşlarının məclisdə verdiyi səslərə görə “ümummilli birliyə xatir” xalqına söz verdiyi ana dilində məktəbi aça bilmədi.

ADF özünün siyasi yol xəritəsini S.C.Pişəvərinin proqramı əsasında müəyyənləşdirib və bu gün “Azadlıq, Ədalət, Milli Hökumət” onun əsas şuarıdır.

Bu ideya yolunda “şeytanla” da olsa, əməkdaşlıq etməyə hazırıq. Ümummilli birlik şuarları verənlərə də tövsiyaməz budur ki, belə birlik olmayıb, olması da mümkün deyil, zira siz kimlərinsə əlində alət olacaqsınız.

Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan xalqı! Azadlıq, Ədalət, Milli Hökumət!

**Azərbaycan Demokrat Firqəsinin**
**Siyasi Heyəti,**

**15 Xordad 1404/5 iyun 2025**